**10.05.2024: xəbər**

**Political Sciences and Philosophy Department Head Participates in Virtual West Azerbaijan Portal Presentation Ceremony**

On May 8, 2024, the head of the Department of Political Sciences and Philosophy Dr. Orkhan Valiyev, participated in the presentation ceremony of the Virtual Western Azerbaijan portal at the Baku Book Center. The portal was created with the support and organization of the West Azerbaijan Community, as well as the Heydar Aliyev Foundation.

Elvin Abbasov, department head of the Heydar Aliyev Foundation and Dr. Aziz Alakbarli, chairman of the Board of the West Azerbaijan Community, MP Dr. Aziz Alakbarli delivered opening remarks at the event. Later, historical scientists gave information about the site.

As it is known, the West Azerbaijan Community started its institutional activity with the visit of the President of the Republic of Azerbaijan Ilham Aliyev on December 24, 2022.

Link: https://qerbiazerbaycan.com/

**Siyasi elmlər və fəlsəfə departamentinin müdiri VRİTUAL QƏRBİ AZƏRBAYCAN portalının təqdimat mərasimində**

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev 2024-cü il mayın 8-də Bakı Kitab Mərkəzində Virtual Qərbi Azərbaycan portalının təqdimat mərasimində iştirak edib. Portal Qərbi Azərbaycan İcmasının, eləcə də Heydər Əliyev Fondunun dəstəyi və təşkilatçılığı ilə yaradılıb.

Tədbirdə Heydər Əliyev Fondunun şöbə müdiri Elvin Abbasov və Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, millət vəkili Dr. Əziz Ələkbərli açılış nitqi söyləyiblər. Sonra tarixçi alimlər sayt haqqında məlumat veriblər.

Məlum olduğu kimi Qərbi Azərbaycan İcması Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 24 dekabr 2022-ci il tarixli ziyarəti ilə öz institusional fəaliyyətinə başlayıb.

Link: https://qerbiazerbaycan.com/


PSİXOLOGİYA


VİRTUAL QƏRBİ
AZƏRBAYCAN


VİRTUAL QƏRBİ AZƏRBAYCAN


Virtual Qərbi Azərbaycan
qerbiazerbaycan.com
Relaunch to update
All Bookmarks
VİRTUAL QƏRBİ AZƏRBAYCAN
Axtar
Tarix
Elm və mədəniyyət
Erməni vandalizmi
Resurslar
Şahid ifadələri
EN
RU
ES
QƏRBİ AZƏRBAYCAN
Qərbi Azərbaycan ərazisi bütöv Azərbaycanın ən qədim, təbiətinə görə ən zəngin bölgələrindən biridir. Keçmişdə Azərbaycanın şimalı ilə cənubunu, bütün Qafqazla Yaxın Şərqi birləşdirən mühüm karvan yollarının üstündə yerləşən, hazırda isə şimaldan Gürcüstan, şərqdən və cənub-şərqdən Azərbaycan Respublikası, qərbdən Türkiyə, cənubdan İranla həmsərhəd olmaqla 29,8 min km² sahəni əhatə edən bu diyar indi Ermənistan kimi tanınsa da, onun ərazisi qədim Türk-Oğuz yurdu, tarixi Azərbaycan torpağıdır. Bu faktı həmin ərazidəki saysız-hesabsız yeraltı və yerüstü maddi mədəniyyət nümunələri – qədim yaşayış məskənləri, kurqanlar, qala, saray və istehkam qalıqları, karvansaralar, körpülər, at-qoç heykəlləri, məscid, pir və ocaqlar da təsdiq edir.
Tarixi mənbələr göstərir ki, məhz çarizm dövründə ermənilər bura məqsədli və düşünülmüş şəkildə kütləvi halda köçürülərək Çar imperiyası üçün etnik dayaq yaradılmışdır. Bu siyasət rus çarı I Pyotrdan başlamış və sovet-bolşevik hökuməti dövründə də daha ciddi şəkildə davam etmiş və sovet hökumətinin ermənipərəst siyasəti nəticəsində Qərbi Azərbaycan torpaqları
"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar".